# Lökbatan qəsəbəsində YAP fəalları ilə görüş olub



**Yeni Azərbaycan Partiyası Qaradağ rayon təşkilatının sədri Qafar Əliyev və Milli Məclisin deputatı Səbinə Xasayeva əvvəlcədən tərtib olunmuş cədvələ uyğun olaraq Qaradağ rayonunun Lökbatan qəsəbəsində yerləşən 1 saylı Ərazi Partiya Təşkilatının (S.Orucov küçəsi) fəalları ilə görüşüblər.**

Yığıncaqda YAP üzvü olmayan sakinlər və bitərəflər də iştirak ediblər.

Tədbiri 1 saylı ƏPT-nin sədri Azad Rzazadə açaraq bildirib ki, YAP fəalları ilə təşkil edilən belə görüşlər partiyanın rayon təşkilatı rəhbərliyi ilə üzvlər arasında əlaqələrin inkişafına, YAP üzvlərinin qarşılaşdığı problemlərin öyrənilməsinə, müvafiq qurumlar qarşısında bu məsələlərin qaldırılmasına və həllinə xidmət edir.



Görüşdə çıxış edən YAP Qaradağ rayon təşkilatının sədri Qafar Əliyev cari ilin ölkəmizdə "Heydər Əliyev İli" elan olduğunu xatırladaraq Azərbaycan xalqının Ümummilli lider Heydər Əliyevin siyasi kursu dəstəklənməsi nəticəsində ölkəmizin möhtəşəm qələbələr qazandığını bildirdi. Rayon təşkilatının sədri Azərbaycanın Qarabağda apardığı lokal antiterror əməliyyatının mahiyyəti, son hadisələr, Yeni Azərbaycan Partiyasının VII qurultayından sonrakı dövrdə partiyada aparılan islahatlar, Azərbaycan Respublikasının Prezidenti, YAP sədri, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yürütdüyü daxili və xarici siyasət, 2020-ci il sentyabrın 27-də başlanan və 44 gün davam edən İkinci Qarabağ - Vətən Müharibəsində əldə olunmuş Böyük Qələbənin əhəmiyyəti, Qarabağ və Şərqi Zəngəzurda aparılan quruculuq və bərpa işləri, köçkünlərin doğma ata-baba yurdlarına qayıdışı və digər məsələlərdən bəhs edərək partiya üzvlərini ölkənin ictimai-siyasi həyatında daha fəal olmağa çağırdı.



Görüşdə çıxış edən Milli Məclisin deputatı Səbinə Xasayeva Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqımızı böyük Zəfər Gününə gətirib çıxaran daxili və xarici siyasətindən danışdı və qeyd etdi ki, Azərbaycan bundan sonra daha da irəli gedərək bütün sahələrdə böyük uğurlar qazanacaq, mövcud olan problem və çətinlikləri aradan qaldıracaq.

Görüş iştirakçıları YAP Qaradağ rayon təşkilatı sədrinin və MM üzvünün çıxışını diqqətlə dinləyərək toxunulan məsələlər, vurğulanan fikirlərlə razı olduqlarını bildiriblər. Görüş iştirakçıları: 150 saylı MİS-in rəisi Misir Mahmudov, Gülsüm Nəbiyeva, Kəmalə Əliyeva, Rizvan Əliyev, Ənvər Kərəmov, Cəmilə Yaqubova, Tahir Talıbov, Valeh Ağamuradov, Rafiq Mikayılov, Rasim Muxtarov və başqaları Prezident İlham Əliyevin yeritdiyi daxili və xarici siyasətdən, Qarabağda aparılan antiterror əməliyyatından tam razı qaldıqlarını, istənilən an dövlətimizin başçısının ətrafında bir yumruq kimi birləşməyə hazır olduqlarını və partiya fəalları ilə belə görüşlərin tez-tez keçirilməsinin zəruriliyini bildiriblər. Görüş zamanı partiya üzvləri Lökbatan qəsəbəsində və S.Orucov küçəsində olan problemləri: abadlıq işlərinin görülməsinə baxmayaraq Su-kanalizasiya İdarəsi tərəfindən xətlərin bərpası məqsədilə ərazidə aparılan qazıntı işləri zamanı küçənin bəzi yerlərinin bərbad vəziyyətə düşdüyü, yenidən asfalt çəkilməsinə ehtiyac yarandığı, kanalizasiya sisteminin bərpa olunaraq normal vəziyyətə gətirilməsi, içməli su problemi, yaxınlıqdakı idman meydançasının təmiri üçün köməklik göstərilməsi, ərazidə söhbətxananın quraşdırılmasına ehtiyac olduğu, uşaqların əylənməsi üçün müvafiq qurğuların quraşdırılmasına ehtiyac olduğu, sıradan çıxmış istilik sisteminin hündür borusunun sakinlər üçün yaratdığı təhlükəni, binaların sıradan çıxmış blok pəncərələrinin yenilənməsini və digər problemləri qeyd ediblər.



**Görüşdə irəli sürülən təklif və problemlər qeydə alındı.**

**Rəşad ŞİRƏLİYEV**